# DÖVLƏT MALIYYƏ NƏZARƏTI VƏ AUDIT XIDMƏTI

*Kərimova Mehriban Allahverən qızı, baş müəllim*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Maliyyə nəzarətini düzgün təşkil etmək üçün əvvəlcə onun subyektlərini və obyektlərini müəyyən etmək lazımdır. Subyekt kimi fiziki və hüquqi şəxsləri, dövlət orqanlarını, ictimai və kommersiya təşkilatlarını, həmçinin onların struktur bölmələrini və s. misal göstərə bilərik. Dövlət nəzarətini həyata keçirən, idarəedən subyektlərə: Parlament, Prezident, Nazirlər Kabineti, fərdi və kollegiyalı orqanlar aid edilir. Nəzarət olunan və ya idarə olunan subyektlərə aiddir: nazirliklər, xüsusi orqanlar, əməkdaşlar, əhali hüquqi və fiziki şəxslər.

İdarəedən subyektlər iştirak dərəcəsinə görə aşağıdakı kimi qruplaşdırılır:

- bilavasitə idarə edənlər
- təmsilçi vasitəsilə edənlər

Tərkibinə görə isə idarə edən subyektləri belə qruplaşdırılır:

- vahid rəhbərlik
- kollegial rəhbərlik

Prezident, təşkilatın yeganə təsisçisi, cəmiyyətin baş direktoru və s. vahid rəhbərlik subyektinə aiddir. Kollegial idarə edənlərə isə parlament, səhmdar yığıncağı, səhmdar cəmiyyətinin direktorlar şurası və s. aid edilir. Təşkil olunma səviyyəsinə görə nəzarətin iki növü vardır: dövlət və yerli maliyyə nəzarəti. Dövlət maliyyə nəzarəti dedikdə, dövlət büdcəsinin və büdcədənkənar fondların büdcələrinin icra olunmasına, pul dövriyyəsinin təşkilinə, kredit ehtiyatlarının istifadəsinə, dövlət daxili və xarici borclarının, dövlət ehtiyatlarının vəziyyətinə, maliyyə, vergi güzəştləri və üstünlüklər verilməsinə edilən nəzarət başa düşülür. Dövlət maliyyə nəzarəti – dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanları, fiziki və hüquqi şəxslər tərəfindən ölkəmizin və yerli subyektlərin qanunvericiliyinə riayət edilməsini, dövlətin maddi, maliyyə resurslarının istifadəsinin səmərəliliyinin və effektivliyinin yoxlanmasıdır. Bütövlükdə respublikamızda maliyyə nəzarətini həyata keçirən bir neçə dövlət orqanları fəaliyyət göstərir: AR-nın hökuməti, AR Prezidentinin nəzarət idarəsi, Hesablama Palatası, Dövlət Xəzinədarlığı, maliyyə-büdcə nəzarətinin yerli orqanları, Dövlət Vergi Xidməti, Gömrük Komitəsi, Mərkəzi Bank və s.

Maliyyə nəzarəti sistemində Hesablama Palatası xüsusi yer tutur. Hesablama Palatası AR Konstitusiyasının 92-ci maddəsinə əsasən dövlətin mülkiyyətinə və pul vəsaitlərinə nəzarəti həyata keçirən orqanıdır. Onun fəaliyyəti “Hesablama Palatası haqqında” 02 iyul 1999-cu il tarixli qanunla tənzimlənir. O cümlədən, Hesablama Palatası Milli Məclisə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanıdır. Lakin bununla yanaşı o, təşkilati və funksional müstəqilliyə malikdir. Büdcənin icrasına nəzarəti həyata keçirərkən Hesablama Palatası qanunilik, obyektivlik, müstəqillik və aşkarlıq prinsiplərini nəzərə alaraq həyata keçirir. Hesablama Palatasının fəaliyyətinin hüquqi əsasları AR-nın Konstitusiyası, Hesablama Palatası özünün fəaliyyətini iş planı əsasında həyata keçirir. Hesablama Palatası qarşısında duran məsələlərin reallaşma prosesində nəzarət-təftiş, ekspert-

analitik, informasiya və digər fəaliyyət növlərini həyata keçirir, büdcənin və büdcədənkənar fondların, aşağıda nəzərdə tutulan nəzarət və icra üzrə vahid sistemlə təmin edir:

1. Hesabat ilində icra üçün operativ nəzarətin təşkili və keçirilməsi;

2. Büdcənin və büdcədənkənar fondların büdcələrin ayrı-ayrı bölmələri və maddələri üzrə kompleks təftişlərin və tematik yoxlamaların aparılması;

3. İcmal büdcənin və AR maliyyə məsələlərinə toxunan büdcə layihələrinin, qa-nunlar və digər normativ hüquqi aktlarının, AR beynəlxalq müqavilələrin eks-pertizası;

4. Büdcə prosesində pozuntu və əyintilərin analizi, onların aradan qaldırılması və həmçinin bütövlükdə büdcə qanunvericiliyinin təkmilləşdirilməsi üçün təkliflər hazırlanması və s.

Dövlət büdcəsinin icrasına ilkin və cari nəzarəti Dövlət Xəzinədarlığı həyata keçirir. Dövlət xəzinədarlığı Maliyyə Nazirliyinin tabeçiliyindədir və 2000-ci ildən etibarən fəaliyyət göstərir. Xəzinədarlıq müəyyən olunmuş sahədə səlahiyyətlərin reallaşması məqsədi ilə aşağıdakı hüquqlara malikdir:

1. Müəyyən olunmuş qaydada müəyyən edilmiş sahənin fəaliyyəti məsələləri üzrə lazımi qərar çıxarmaq üçün məlumat tələb etmək və almaq;

2. Müəyyən edilmiş sahənin fəaliyyətində lazımi ekspertiza, analiz və qiymətləndirmə, həmçinin elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3. Xəzinənin ərazi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;

4. AR Maliyyə Nazirliyinin razılığı ilə xəzinədarlığın ərazi orqanlarını yenidən qurmaq və ləğv etmək və s.

Azərbaycanın müstəqillik əldə etdiyi andan etibarən seçdiyi bazar münasibətləri inkişaf yolu ölkənin iqtisadi yüksəlişinin təmin olunması üçün mühüm rol oyna-maqdadır. Ölkədə həyata keçirilən islahatlar sahibkarlıq fəaliyyətinin genişləndiri-lməsi ilə bağlı görülən kompleks tədbirlər ölkənin sosial-iqtisadi həyatında nəzərə-çarpacaq uğurların təmin olunmasına əlverişli zəmin yaratmışdır. Məhz bunun bariz nümunəsidir ki, Azərbaycan Respublikası prezidentinin 2002-ci il 2 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş “ Xüsusi razılıq (Lisenziya) tələb olunan fəaliyyət növ-lərinin siyahısı”na mühüm strateji fəaliyyət növü kimi auditor fəaliyyəti də daxil edilmişdir. 1995-ci il iyun ayının 20-də Azərbaycan Respublikasının Milli Məclisi “Auditor xidməti barədə” Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 16 sentyabr tarixli qərarının icrasını təmin etmək məqsədi ilə “Azərbaycan Respublikası Auditorlar Palatasının təşkilinin təmin edilməsi barədə “qərar qəbul etdi.

1996-cı il aprelin 4-də Azərbaycan Respublikasının Auditorlar Palatası öz fəa-liyyətinə başladı. Audit - təsərrüfata nəzarət formasıdır. “Auditor fəaliyyəti haqqında” qanunda müvafiq olaraq audit təşkilatların və fərdi sahibkarların mühasibat uçotu və maliyyə hesabatının müstəqil yoxlanması üzrə sahibkarlıq fəaliyyətidir. Daxili audit təşkilatının əməliyyatlarının yaxşılaşdırılması və əlavə dəyərin yaradılması ilə bağlı nəzərdə tutulmuş obyektiv qiymət qoyma və konsultasiya fəaliyyəti ilə məşğul müstəqil xidmətdir. O, təşkilata riskləri idarəetmə, nəzarət və idarəetmə proseslərin səmərəliliyin, artırmaqla və qiymətqoymaya sistemli, nizama salınmış münasibət

əlavə edərək öz məqsədlərinə nail olmaqla kömək edir. Daxili audit təşkilatının daxili nəzarət sisteminin arasıkəsilməyən monitorinqin və onun daxili kapitala qiymətqoyma prosedurlarının bir hissəsidir. Daxili auditə audit planına əlçatan informasiyanın yoxlanması və qiymətləndirilməsi, nəticələrin bildirilməsi, tövsiyələrə riayət olunmasının və problemlərinin həll olunmasının işlənməsi daxildir.

Maliyyə nəzarəti həyata keçirən müxtəlif orqanlarının qarşılıqlı fəaliyyətinin təşkilati məsələləri nəzarətinin inkişafının bütün mərhələlərində böyük əhəmiyyətə malik olmuşdur. Təftişin təyin edilməsi və keçirdiyi zaman müxtəlif dövlət maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyəti qaydaları haqqında xüsusi əsasnamə AR Maliyyə Nazirliyinin əmr sərəncamları ilə təsdiq olunmuşdur. Kənar və daxili auditorların maliyyə nəzarətinin keçirilməsi vaxtı, müddəti və tematikası əlaqələndirilməlidir. Bununla əlaqədar olaraq lazım gəldikdə kənar nəzarət daxili nəzarətin hazırlanmış sənədlərini öyrənə və öz işində istifadə edə bilər. Öz fəaliyyəti ilə kənar nəzarət daxili nəzarətin səmərəliliyin artırılmasına müsbət təsir göstərə və ya lazım gəldikdə onun iş prinsiplərinin gedişatına tövsiyələr verə bilər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı, 1995.
2. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı, 1994.
3. “Hesablama Palatası” haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 1999.